

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 151 (21.561)

16 avqust 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrabın etimadnaməsini qəbul edib.

Mixael Kindsqrab etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Dövlətimizin başçısı Azərbaycanla Almaniya arasında ikitərəfli əlaqələrin çox uğurla inkişaf etdiyini vurğulayıb. İqtisadi sahədə böyük qarşılıqlı marağın olduğunu deyən dövlətimizin başçısı bunun Berlində keçirilən biznes forum zamanı şahidi olduğunu qeyd edib.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzulayıb.

Qəbula görə minnətdarlığını bildirən Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrab son illər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artdığını xüsusi vurğulayıb. Almaniyalı diplomat siyasi, iqtisadi, enerji təhlükəsizliyi, mədəni və digər sahələrdə mövcud olan əməkdaşlığımızın daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini deyib.

Görüşdə ölkələrimiz arasında enerji, təhlükəsizlik, səhiyyə, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edilib.

## Ərzaq təhlükəsizliyi tam təmin olunub



***Cəmiyyətin rahat və təhlükəsiz həyatının mühüm şərtlərindən biri etibarlı ərzaq təminatıdır. Ölkə əhalisinin keyfiyyətli ərzaq təminatını özündə ehtiva edən ərzaq təhlükəsizliyi bu baxımdan dövlətin üzərinə düşən mühüm vəzifələrdəndir. Çünki ilin bütün fəsillərində və istənilən şəraitdə əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminat məsələsini yalnız dövlət həll edə bilər.***

Ərzaq təhlükəsizliyi çox geniş anlayışdır. O təkcə hansısa mənbələr hesabına müəyyən vacib ərzaq məhsulları ehtiyatının yaradılması deyil, həm də bu ehtiyatların formalaşdırılmasının dayanıqlılığının təmin olunması üçün zəruri şəraitin, habelə bunun üçün maddi stimulların və sosial zəmanətlərin yaradılmasıdır. Ona görə də ərzaq təhlükəsizliyi dedikdə torpaqlardan səmərəli istifadə, mütərəqqi suvarma, məhsuldar toxum sortlarının əldə olunması və yetişdirilməsi, istehsal olunmuş məhsulların saxlanılması və emalı, ticarət infrastrukturunun yaradılması və aqrar sahədə iqtisadi münasibətlərin əlaqələndirilməsi kimi vacib məsələlərə baxmaq lazımdır. Xüsusən çörək və digər taxıl məhsullarının istehsalı tarixboyu cəmiyyətin əsas qayğılarından biri olsa da, tarixən aqrar sahənin üzərinə düşən bu vəzifə dövlətin ümumi iqtisadi təhlükəsizlik siyasətinin mühüm bir parçası olub. Muxtar respublikamızda bu sahədə görülmüş işlərə nəzər saldıqda, ilk dövrdə, regionda istehsalı mümkün olmayan ərzaq məhsullarının sərfəli qiymətlərlə idxalı ilə bərabər, eyni zamanda daxili bazarı rəqabətdən qorumaqla mühüm ərzaq məhsulları üzrə yerli istehsalın təşkil olunduğunu, bu məqsədlə səmərəli kreditləşmənin təminini, aqrar bazarın mövsümilikdən asılılığını aradan qaldıran soyuducu anbar və digər infrastruktur şəbəkəsinin yaradılmasını, modern kənd təsərrüfatı texnikalarının alınıb gətirilməsini və onların lizinq yolu ilə kənd təsərrüfatı sahibkarlarına verilməsini, kəndliyə güzəştli qiymətlərlə gübrə, yanacağın verilməsi kimi genişmiqyaslı işləri görürük. Bu vəzifələrin uğurla həll edilməsi, öz növbəsində, regionda ərzaq təhlükəsizliyinin uzunmüddətli dövr üçün həllinə şərait yaradır.

Ərzaq təhlükəsizliyinin təmin olunması təkcə ölkəmiz və muxtar respublikamız üçün aktual olmayıb, bütün dünyanı düşündürən bir problemdir. Belə ki, bu gün dünyada yüz milyonlarla insan aclıq həddində yaşadığı halda, iri ərzaq məhsulları istehsalçıları olan ölkələrdə hazır məhsulun satışı problemi özünü göstərir. Yaxud geniş əkin sahələrinə malik olan və texnoloji cəhətdən inkişaf etmiş ölkələrdə taxılın ərzaq məhsulu kimi deyil, texniki məqsədlər üçün xammal və ya yem məqsədilə istifadəsinə üstünlük verdiyi də məlumdur. Yəni burada təkcə mühüm ərzaq məhsullarının sırf istehsalı problemi ilə yanaşı, iqtisadi mənafe və etibarlı əməkdaşlıq məsələləri də ön plana çıxır. Bundan əlavə, müasir dünyada ekoloji problemlərin kəskinləşməsini, əkinəyararlı münbit torpaq sahələrinin sürətlə azaldığını və bütün bunların əksinə, planetin əhalisinin get-gedə artımını nəzərə alsaq, hər bir ölkədə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı məsələsinin gələcəkdə də öz ciddiliyini qoruyacağı göz qabağındadır. Belə bir vacib məsələ dünyada bir çox beynəlxalq və regional təşkilatların diqqət mərkəzində olsa da, əslində, bu problem ölkələr və onların kiçik regionları səviyyəsində həll olunduqda daha çox uğur qazanıldığını görürük. Buna görə də artıq tam əminliklə deyə bilərik ki, Naxçıvan Muxtar Respublikasında bir vaxtlar kəskin problem kimi özünü göstərmiş bu məsələnin uğurlu həlli ərzaq təhlükəsizliyinə tam nail olunmasının mühüm bir modelidir.

1990-cı illərin əvvəllərində, müstəqilliyin ilk illərində muxtar respublikamızda ərzağa olan tələbat idxal, o cümlədən bir sıra yardımlar hesabına ödənilirdi. O dövrdə ulu öndərimizin rəhbərliyi ilə ölkəmizdə ilk dəfə Naxçıvanda başlanılmış aqrar islahatlara uyğun olaraq, sonrakı illərdə muxtar respublikamızın aqrar potensialının hərəkətə gətirilməsi üçün kompleks tədbirlərə başlanıldı. Bu sahə üzrə müxtəlif dövlət proqramlarında qarşıya qoyulmuş vəzifələrin uğurla icra edilməsi bu məsələnin kompleks həllinə imkan verdi. Naxçıvan Muxtar Respublikasında biznes mühitinin yaxşılaşdırılması, ərzaq məhsullarının istehsalı üzrə sahibkarlığın inkişafı və sağlam rəqabətin qorunması, dövlət investisiyalarının aqrar bölməyə, onun infrastruktur təminatının yaxşılaşdırılmasına yönəldilməsi, suvarılan torpaq sahələrinin genişləndirilməsi, meliorasiya və irriqasiya sistemlərinin müasirləşdirilməsi və potensialının gücləndirilməsi, su ehtiyatlarının idarə olunmasının təkmilləşdirilməsi, ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət, ərzaq məhsullarının satış-tədarük bazalarının və satış mərkəzlərinin, soyuducu anbarların, qablaşdırma müəssisələrinin yaradılmasının dəstəklənməsi kimi bir çox məsələlərin uğurlu həlli öz bəhrəsini verməkdədir. Muxtar respublikada bank-kredit qurumlarının, Sahibkarlığa Kömək Fondunun və digər təşkilatların vəsaitləri hesabına sahibkarlara, o cümlədən kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı ilə məşğul olan iş adamlarına güzəştli kreditlərin verilməsi davam etdirilməkdədir. Belə ki, təkcə cari ilin ötən dövründə kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 7 milyon 233 min 500 manat məbləğində kreditlərin verilməsi təmin olunub.

Naxçıvanda builki taxıl biçini də artıq uğurla başa çatıb. Bu ilin məhsulu üçün muxtar respublikamızda 31579 hektar sahədə taxıl əkilmişdi və cari ildə taxıl zəmilərindən 94117 ton taxıl yığılıb.

Kartof ikinci çörəkdir. Buna görə də muxtar respublikada tələbata uyğun olaraq kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılaraq 2016-cı ildə 3053 hektar sahədə kartof əkini aparılıb ki, bu da 2015-ci ildə əkilmiş sahədən 86 hektar çoxdur. Hazırda Naxçıvan bazarında kartofun pərakəndə satış qiyməti bu sahədə qazanılmış konkret uğurdan xəbər verir. Cari ilin ilk altı ayında 2015-ci ilin yanvar-iyun ayları ilə müqayisədə muxtar respublikada diri çəkidə 1,6 faiz çox, yəni 11300 tona yaxın ət və ya 1,7 faiz çox, yəni 47100 tona yaxın südün istehsal olunması heyvandarlıq məhsulları istehsalı sahəsindəki artımdan xəbər verir. Ümumiyyətlə isə muxtar respublikamızda 2016-cı ilin yanvar-iyun aylarında ötən ilə nisbətən 5,6 faiz çox, yəni 117 milyon 545 min manata yaxın həcmdə kənd təsərrüfatı məhsulunun istehsalı ərzaq təhlükəsizliyi məsələsinin tam təmin olunduğunu göstərir.

✍ **Əli CABBAROV**

## Gömrük əməkdaşlarının görüşü keçirilib

İran İslam Respublikasının Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil vilayətlərinin gömrük rəsmilərindən ibarət nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında işgüzar səfərdə olub.

Şərqi Azərbaycan Vilayətinin gömrüklərinin rəisi Ələsgər Abbaszadənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində görüş keçirilib. Görüşdə İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Mənsur Ayrım da iştirak edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov ölkələrimiz arasındakı əlaqələrin tərkib hissəsi kimi İranın yaxın vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasında qarşılıqlı münasibətlərin uğurla inkişaf etdiyini, gömrük sahəsində əməkdaşlığın ildən-ilə genişləndiyini bildirib.

Nümayəndə heyətinin rəhbəri Ələsgər Abbaszadə səmimi görüşdən məmnunluğunu ifadə edərək İran tərəfinin qarşılıqlı faydalı əməkdaşlıqda maraqlı olduğunu dilə gətirib.

Heyətlərarası görüşdə ikitərəfli gömrük və ticarət əlaqələrinin sadələşdirilməsi məsələləri müzakirə edilib. Tərəflər sərhəd-keçid məntəqələrində mal və nəqliyyat vasitələrinin keçidinin sürətləndirilməsi, məlumat mübadiləsinin həyata keçirilməsi, sərhəd-keçid məntəqələrinin iş saatının artırılması, gömrük nəzarətində "bir dayanacaq" prinsipinin tətbiqi, ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsi üçün qarşılıqlı görüşlərin mütəmadi qaydada təşkili və bir sıra digər mühüm məsələlərlə bağlı ilkin razılığa gəliblər.

Birgünlük səfər proqramı çərçivəsində Naxçıvanın görməli yerlərini gəzən qonaqlar Biznes Mərkəzində də olublar. Mərkəzlə tanışlıq zamanı qonaqlara muxtar respublikamızın sosial-iqtisadi inkişafı, Naxçıvanda istehsal olunan mallar, o cümlədən ixrac potensialı olan yerli istehsal məhsulları barədə məlumat verilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Ali təhsil ocağının binası yenidən qurulur

***Muxtar respublikanın paytaxtında hər il genişmiqyaslı tikinti-quruculuq işlərinin aparılması, abadlıq tədbirlərinin həyata keçirilməsi Naxçıvan şəhərinin simasını tanınmaz dərəcədə dəyişdirib. Görülən işlər qədim şəhərin gözəlliyini artırmaqla yanaşı, insanların rahat şəraitdə yaşamasına, təhsil almasına, işləməsinə, asudə vaxtlarının səmərəli keçirilməsinə zəmin yaradıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərin bir hissəsini də təhsil müəssisələrinin yenidən qurulması təşkil edir.***



Hazırda Naxçıvan Müəllimlər İnstitutunun binası əsaslı şəkildə yenidən qurulur. Qısa müddətdə burada söküntü işləri aparıldıqdan sonra kommunikasiya xətlərinin yenilənməsinə başlanılıb. Yeni korpusun inşa edilməsi isə bu təhsil müəssisəsinin gələcək fəaliyyətini daha da genişləndirəcək. Belə ki, "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən ucaldılan bina zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olacaq. İnşaat işlərinə cari ilin aprel ayından başlanılıb. Hazırda binanın üçüncü mərtəbəsində hörgü, sonuncu mərtəbədə isə beton-qəlib işləri görülür, eyni zamanda daxildə suvaq işləri aparılır.

Məlumat üçün bildirək ki, binanın zirzəmi hissəsində idman zalı, yeməkxana, anbar, birinci mərtəbədə kitabxana, elektron oxu zalı, 4 qonaq otağı, ikinci mərtəbədə rektor, kompüter və dərs otaqları, üçüncü mərtəbədə auditoriya, kompüter otağı və kafedra, dördüncü mərtəbədə auditoriya və kompüter otaqları, beşinci mərtəbədə isə 160 yerlik iclas zalı institut kollektivinin ixtiyarına veriləcək.

**Xəbərlər şöbəsi**

## Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vey Cinhuan:

### *Naxçıvan zəngin potensiala malikdir*

***Xəbər verdiyimiz kimi, avqustun 11-12-də Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vey Cinhuan Naxçıvan Muxtar Respublikasına ikigünlük səfəri zamanı muxtar respublikanın istehsal, təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub. Muxtar respublikadan zəngin təəssüratla ayrılan çinli diplomat "Şərq qapısı" qəzetinə də müsahibə verib. Müsahibəni oxuculara təqdim edirik:***

*– Naxçıvana səfərinizin məqsədi barədə nə deyə bilərsiniz?*

– Çox sağ olun, əvvəlcə deyim ki, bu, mənim Naxçıvan Muxtar Respublikasına ilk səfərimdir. Bildiyiniz kimi, Naxçıvan müxtəlif tarixi səbəblərdən Azərbaycanın əsas ərazisindən aralı düşüb. Lakin bu qədim Azərbaycan diyarı müxtəlif



çətinliklərə baxmayaraq, daim inkişaf edir, öz sabitliyini qoruyur. Gəlişimizin əsas məqsədi muxtar respublika ilə daha yaxından tanış olmaqdır.

Bunu da vurğulamaq lazımdır ki, Naxçıvan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vətənidir. Dahi şəxsiyyət Heydər Əliyev həm də Çin xalqının böyük dostudur. Yaxşı xatırlayıram, ulu öndər Heydər Əliyev ilk dəfə 1994-cü ildə Çinə səfər etmiş və ölkəmizdə bir sıra faydalı görüşlər keçirmişdi. Elə Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasındakı ilk əməkdaşlıq körpüsünün təməli də məhz həmin dövrdə qoyulub. Ona görə də bura gələndə düşünürdüm ki, mən həm də dahi Heydər Əliyevin vətəninə gedirəm.

*– Sizə də yaxşı məlumdur ki, hazırda Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikası arasında bir sıra əməkdaşlıq əlaqələri mövcuddur.*

– Bəli, bizim səfərimizdə bu amil də mühüm rol oynayır ki, Naxçıvanın hazırkı potensialı ilə əyani şəkildə tanış olaq. Artıq bir müddətdir ki, Çin Xalq Respublikası Naxçıvanda həm telekommunikasiya, həm də avtomobil istehsalı üzrə təmsil olunur. Bu, eyni zamanda Naxçıvanın bir muxtar dövlət kimi investisiyalara açıq olduğunun göstəricisidir. Bildiyiniz kimi, ötən il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Çin Xalq Respublikasında səfərdə olmuşdu. Səfər müddətində hər iki ölkənin liderləri arasında müxtəlif sahələr üzrə qarşılıqlı əməkdaşlıq məsələlərindən danışılmışdı. Buna görə də çalışırıq ki, Azərbaycanın regionları, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikası arasında daha geniş əlaqələrin qurulmasına yardım edək. Onu da qeyd edim ki, mənim Naxçıvana səfərim ikigünlük olsa da, buranın potensialı haqqında mühüm məlumatlar toplaya bildim. İnanıram ki, mənim bu səfərim bundan sonrakı fəaliyyətimdə də Naxçıvanın, ümumilikdə isə Azərbaycanın Çin Xalq Respublikası ilə qarşılıqlı əməkdaşlığında mühüm rol oynayacaq.

*– Bəs bu qısa səfərinizdə Naxçıvan sizdə hansı təəssüratları yaratdı?*

– Əvvəlcə sizin vasitənizlə istiqanlı, qonaqpərvər naxçıvanlılara səmimi salamlarımı çatdırıram. Bir daha əmin olduq ki, Naxçıvan çox zəngin potensiala malikdir. Burada qədim tarixi abidələr və müasir infrastruktur vardır. Eyni zamanda naxçıvanlılar istiqanlıdırlar.

İnanıram ki, bu atmosfer əlaqələrimizin də hər zaman isti olacağına şərait yaradacaq.

*– Müsahibə üçün sağ olun.*

**Səbuhi HƏSƏNOV**

## Müasir və abad görkəmi ilə gözoxşayan yurd yeri

***İsti yay günlərinin birində yolumuzu gözəlliklər məskəni Şahbuza saldıq. Ulu Tanrının səxavətini əsirgəmədiyi bu bölgəmiz bu gün müasir və abad görkəmi ilə göz oxşayır. Kiçik Qafqazın Dərələyəz silsiləsinin cənubuna, Zəngəzur silsiləsinin qərb yamaclarına sığınan rayonun təbiət abidələri Şahbuza bir məğrurluq və əzəmət bəxş edib. Şəninə nəğmələr qoşulan Salvartı dağı, Şapur qalası, Üçqardaş, Qonaqgörməz, Ağdaban dağları min illərdir, bu diyarı dövrəsinə alıb. Batabat yaylağındakı "Üzən ada" təbiətin möcüzələrindən biridir. Sovet dönəmində "Üzən ada"nı ləğv etmək üçün buraya texnikalar gətirilsə də, rayonun yurd təəssüblü insanları bu təbiət möcüzəsini qoruyub saxlaya biliblər.***

Bölgəyə gedən yolboyu dağların yamaclarında terras üsulu ilə salınmış yaşıllıq zolaqları qədim yurd yerinin təbiətini daha da zənginləşdirib. Burada bir məsələni xüsusi qeyd etmək lazımdır ki, aran və düzəngah yerlərdə əkilən ağacların su ilə təchizatı o qədər də çətin məsələ deyil. Problem dağ yamaclarına su qaldırılmasındadır ki, bu da öz həllini tapıb. Rayonun idarə, müəssisə və təşkilatlarının əməkdaşları müntəzəm olaraq bu ünvanlara gəlir, müxtəlif aqrotexniki tədbirlər həyata keçirirlər. Bölgənin son illərdə keçdiyi inkişaf yolu on illərə bərabərdir. Bu barədə danışmazdan əvvəl qədim yurd yerinin tarixinə nəzər salmağa dəyər. XVI əsrdə burada 27 kəndi, Oyuqlucaqaya, Bazaryurd, Dərəbaş gədiyi, Qaçdaş, Nərkeçi və Armudlu yaylaqlarını əhatə edən Dərəşahbuz nahiyəsi yaradılıb, XIX əsrin 40-cı illərinə qədər fəaliyyət göstərib. 1925-ci ildə Naxçıvan inzibati ərazi vahidində Nərimanov rayonu adlandırılıb (30 kəndi əhatə edib), 1930-cu ildən "Şahbuz" adı bərpa olunub. Rayon 1963-cü ildə ləğv edilərək Naxçıvan (indiki Babək) rayonuna birləşdirilib, 1965-ci ildə yenidən təşkil olunub. Şahbuz qəsəbəsinə 2007-ci ildə şəhər statusu verilib. 2013-cü ildə sahəsi 1454 hektar olan Qarababa kəndi, bütövlükdə, Ayrınc kəndinin 92,8 hektar sahəsi, Daylaqlı kəndinin 274,8 hektar sahəsi Şahbuz şəhərinə verildikdən sonra hazırda rayon mərkəzi 2826,6 hektar sahəni əhatə edir. Ümumilikdə isə rayonun ərazisi 836,6 kvadratkilometrdir. Əhalisi 25 min nəfərə yaxındır. Rayonda 1 şəhər, 1 qəsəbə, 22 kənd vardır.

### *Şahbuz toponimi haqqında nə bilirik?*

Şahbuz toponimi ilə bağlı müxtəlif versiyalar mövcuddur. Tarixi mənbələrdə "Şahbuz" adına ilk dəfə Eldənizlərin mis sikkə dəfinəsini göstərən xəritədə və Əmir Teymurun tarixçisi Şərəfəddin Əli Yəzdinin "Zəfərnamə" əsərində rast gəlinir. Ancaq faktlar göstərir ki, Şahbuz ərazisi daha qədim yaşayış məskənidir. Bu cəhətdən adın mənası ilə bağlı xalq etimologiyasında, Q.Qeybullayev, M.Təhmasib, T.Hacıyev kimi tədqiqatçıların araşdırmalarında müxtəlif fikirlər səslənir. Həqiqətə daha uyğun olanı isə M.Təhmasibin gəldiyi qənaətdir. "Şahbuz" sözünün "şah" hissəsi "hündür, yüksək" anlamlarında işlənir. Alim "Şahbuz" sözünün ikinci komponentini (bus//buz) qəbilə adı ilə əlaqələndirir. Və bu qəbiləni Midiya qəbilələrindən biri kimi təqdim edir. Buslar türk mənşəli etnos olub, öz adlarını bir qisim toponimlərdə, o cümlədən Şahbuz adında yaşatmışlar. Belə ehtimal olunur ki, sözün birinci hecası olan "şah" "bus//buz" tayfa adı ilə birləşərək "buslara məxsus yüksək yer" mənasını verir.

AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırova görə, bu adın məna açımı ilə bağlı belə bir ehtimal da məqbul sayıla bilər. Sözün "şah" komponentinin vaxtilə bu ərazilərdə yaşamış "saq" türk qəbilə birləşməsinin adından götürülməsi mümkündür.

### *Dünənki Şahbuzdan əsər-əlamət qalmayıb və ya son illərdə keçilən yol on illərə bərabərdir*

Rayon mərkəzindəki ümummilli lider Heydər Əliyevin adını daşıyan prospekt Şahbuz şəhəri haqqında yüksək təəssüratlar yaradır. Bu ünvan elə bir füsunkar görkəmə gətirilib ki, bu gözəlliyə vurğun olmamaq mümkün deyil. Prospektdə gözəl park salınıb. Bu park şahbuzluların ən çox üz tutduğu ünvanlardan biridir. Rayon Təhsil Şöbəsinin əməkdaşı Xanlar Səfərəliyev deyir ki, Şahbuzun bugünkü görkəmini görəndə istər-istəməz rayonumuzun keçmişini xatırlayırıq. Sözün həqiqi mənasında, Şahbuz gözdənuzaq, könüldəniraq düşmüş bir yaşayış məntəqəsini xatırladırdı. Son illərdə şahbuzlular da gördülər və inandılar ki, təşəbbüskarlıq, əzmkarlıq, insana qayğı olan yerdə hər şeyə nail olmaq mümkündür. Bu gün Şahbuz müasir Azərbaycan rayonudur. Bizə o qalır ki, belə gözəl görkəmə gətirilmiş rayonumuzda qurulanları, yaradılanları qoruyaq. Şahbuzlular çəkilən zəhməti qiymətləndirməyi, gözəlliyi qorumağı bacaran, onun qədrini bilən insanlardır.

Onunla parkı gəzirik. Prospektə paralel olan yuxarıdakı küçəyə gözüm sataşır. Bu ünvan da quruculuq donuna bürünüb. Belə qənaətə gəlirəm ki, Şahbuzdan bir neçə il əvvəl ayrılan insan indi rayon mərkəzinə üz tutarsa, mübaliğəsiz demək olar ki, şəhəri tanımaz. Bu fikrimlə Xanlar müəllim də razılaşır. Çünki burada yenilənməyən bina qalmayıb. Bütün idarə, müəssisə və təşkilatlar üçün müasir memarlıq üslubunda binalar inşa olunub. Rayon İcra Hakimiyyəti, Maliyyə, Təhsil, Polis şöbələri, Baytarlıq və Rabitə idarələri, Dövlət Sosial Müdafiə Fondunun Şahbuz Rayon Şöbəsi, Əhalinin Sosial Müdafiəsi, Gigiyena və Epidemiologiya mərkəzləri, Tarix-Diyarşünaslıq Muzeyi, avtovağzal, "Araz" kinoteatrı, Mərkəzləşdirilmiş Kitabxana Sistemi, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı və digər təşkilatların fəaliyyət göstərdikləri yeni binalarda əməkdaşlar üçün hərtərəfli iş şəraiti yaradılıb. Həmin ərazilərdə gülkarlıqlar və yaşıllıq zolaqları salınıb.

Məlumat üçün onu da bildirək ki, quruculuq tədbirləri rayon mərkəzilə məhdudlaşmayıb. Bütün kəndlərdə belə tədbirlər həyata keçirilib. Ən ucqar dağ və sərhəd yaşayış məntəqələrinin belə, siması tanınmaz dərəcədə dəyişilib. Həmin ünvanlarda kompleks quruculuq tədbirləri aparılıb, müasir infrastruktur yaradılıb. Cari ilin ilk 6 ayında Daylaqlı kəndində 120 şagird yerlik məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Kolanı kəndində isə 316 şagird yerlik məktəb binasının, Kiçikoba kəndində xidmət mərkəzinin və Şahbuz şəhərində elektrik şəbəkəsi üçün yeni binanın tikintisi aparılır.

Muxtar respublikamızda yol-nəqliyyat kompleksinin yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Çünki abad yurd yolundan tanınar, – deyib atababalarımız. Bu qənaətdəki həqiqəti isbat etmək üçün uzağa getməyə ehtiyac yoxdur. Elə bəhs etdiyimiz Şahbuz rayonu bunun üçün ən gözəl ünvandır. Rayonun bütün kəndlərində olmuşam. İstər sərhəd kəndləri, istərsə də digər yaşayış məntəqələri arasında olan yollarda aparılan quruculuq tədbirlərinə qibtə etməyə bilmirsən. Bu bölgənin elə kəndləri var ki, evlərin biri dağın ətəyində, biri dərənin yanındadır. Yolları da elədir Şahbuzun. Təbii ki, belə coğrafi məkanda yol çəkilişi də çətindir. Lakin bunun öhdəsindən gəlinib. Yolların abad saxlanılması istiqamətində aparılan tədbirlər öz nəticəsini verib, nəqliyyatın intensiv hərəkəti təmin olunub. Cari ilin ötən dövründə Daylaqlı və Kiçikoba kəndlərində 2,8 kilometr uzunluğunda asfalt örtük salınıb, Yuxarı Qışlaq kənd avtomobil yolunun kənarında 15 metr uzunluğunda istinad divarı çəkilib, Külüs, Kükü, Güney Qışlaq, Ayrınc kənd yollarında, eləcə də Şahbuz-Batabat magistral yolunda cari təmir işləri aparılıb.

### *Aqrar sahəyə qayğı məhsul bolluğuna səbəb olub*

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, rayonda əsasən, əkinçilik, heyvandarlıq, arıçılıq və bağçılıq inkişaf etdirilir. Aqrar sahənin inkişafı məqsədilə şəxsi mülkiyyətdə olan torpaqlardan səmərəli istifadəyə dövlət qayğısı güclənib. Ötən il bu ilin məhsulu üçün 1337 hektar sahədə payız əkini keçirilib, 3835 ton məhsul götürülüb.

Cari ildə 463 hektar sahədə kartof, 286 hektar sahədə tərəvəz, 242 hektar sahədə dənli-paxlalı, 11 hektar sahədə bostan bitkiləri və 280 hektar sahədə digər bostan məhsulları əkilib.




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş və uğurla başa çatmış "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası öz bəhrələrini verib. Bu istiqamətdə rayonda həyata keçirilən tədbirlər meyvə və tərəvəz istehsalının artımına müsbət təsir göstərib. Məlumat üçün bildirək ki, adıçəkilən proqramın uğurla icra olunması hesabına rayonda bağ sahələri 60,9 hektar artırılıb. Üç nəfər isə bu sahəni inkişaf etdirmək üçün kredit götürərək 15 hektar sahədə bağ salıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" isə rayonda bu sahəni inkişaf etdirmək üçün daha bir stimul olub. Proqramın icrası istiqamətində cari ilin ötən dövründə xeyli iş görülüb, meyvə bağlarının sahəsi genişləndirilib. Cari ilin ötən dövrü ərzində meyvə bağlarından 934 ton məhsul yığılıb. Bu da ötən ilin birinci yarım ili ilə müqayisədə 0,4 faiz çoxdur. Cari ildə yaşıllaşdırma tədbirləri davam etdirilib, 4,7 hektar sahədə yeni bağ salınıb, 0,4 hektar sahədə bərpa işləri aparılıb, 4860 ədəd yeni meyvə tingi əkilib.

Rayonda sənaye məhsulunun həcmi də ildən-ilə artır. Bəhs olunan dövrdə 5 milyon 924 min 900 manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur.

### *İnkişaf bütün sahələri əhatə edir*

Cari ilin birinci yarısında şahbuzlulara göstərilən rabitə xidmətinin səviyyəsi yüksəldilib, əhaliyə verilən təbii qaz və elektrik enerjisindən səmərəli istifadə olunması üçün tədbirlər həyata keçirilib. Rayon əhalisinə göstərilən səhiyyə, mədəniyyət və digər sosial xidmətlərin səviyyəsi xeyli yüksəldilib. Aztəminatlı ailələrin sosial müdafiəsinə diqqət artırılıb. Bəhs olunan dövrdə 80 ailənin 304 üzvünə 41 min 21 manat sosial yardım, 3508 pensiyaçıya 3 milyon 825 min 93 manat pensiya, 883 nəfərə 407 min 910 manat müxtəlif növ sosial müavinətlər verilib.

Bu gün Şahbuz rayonunda 23 tam orta məktəb, 6 məktəbdənkənar müəssisə var. Məktəblərdən 21-i, məktəbdənkənar müəssisələrdən 2-si yeni binalarda fəaliyyət göstərir. Ötən dövrdə şagirdlərin təlim-tərbiyəsi sahəsində təhsil müəssisələrinin fəaliyyətinə nəzarət diqqətdə saxlanılıb.

Rayonda əhalinin sağlamlığının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, yaradılmış həkim briqadaları tərtib olunmuş cədvəl əsasında ayrı-ayrı yaşayış məntəqələrində olub, peyvəndlərin vaxtında aparılmasına diqqət yetirib.

Rayondakı mədəniyyət evlərinin, klubların, Mərkəzləşdirilmiş Kitabxana Sistemi və onun filiallarının, uşaq kitabxanası, uşaq musiqi məktəblərinin, muzeylərin, kinoteatrın fəaliyyəti qənaətbəxş olub. Ötən dövr ərzində bütün mədəniyyət müəssisələrində tarixi-əlamətdar və bayram günlərinin qeyd edilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, təbliği diqqət mərkəzində saxlanılıb. Yaradılmış ansambllar, folklor qrupları rayonun mədəni həyatında fəal iştirak edirlər. Vaxtilə Şahbuz Rayon Mədəniyyət Evi nəzdində dram dərnəyi kimi yaradılan və bu gün Xalq teatrı statusu ilə fəaliyyət göstərən kollektiv insanların asudə vaxtının səmərəli təşkilinə öz töhfəsini verir.

* * *

Şahbuz rayonunda son illər, konkret olaraq cari ilin ilk 6 ayında həyata keçirilən məqsədyönlü tədbirlər belə deməyə əsas verir ki, bu dağlıq zonada sosial rifahın, yaxşı gün-güzəranın təmin olunmasında dövlət qayğısı başlıca amilə çevrilib. Davamlı xarakter alan, hər addımda müşahidə edilən və bəhrələri görünən belə qayğı isə bölgə sakinlərinin ən qiymətli sərvət olan torpağa bağlılıqlarını daha da gücləndirib. Torpaq isə ona baş əyənə, qədrini bilənə, onu qoruyana heç vaxt borclu qalmır.

**Muxtar MƏMMƏDOV**

# Naxçıvan Uşaq Bərpa Mərkəzi

## *Burada sağlamlıq imkanları məhdud uşaqlara yüksək tibbi reabilitasiya xidməti göstərilir*

***Uşaqlara qayğı göstərmək, onların həm fiziki, həm də mənəvi cəhətdən sağlam böyümələrini, milli-mənəvi dəyərlərimizə sadiq bir şəxsiyyət kimi formalaşmalarını təmin etmək muxtar respublikamızda qarşıya qoyulan əsas məqsədlərdəndir. Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Bu qəbildən olan uşaqlara göstərilən tibbi xidmətin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır.***



2007-ci ildə Naxçıvan Uşaq Bərpa Mərkəzinin istifadəyə verilməsi muxtar respublika sakinlərinin böyük sevincinə səbəb olub. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri uşaqlara göstərilən qayğının əhəmiyyətindən danışaraq qeyd edib ki, biz cəmiyyətimizi inkişaf etdirmək istəyiriksə, müstəqilliyimizi əbədi etmək istəyiriksə, uşaqlara qayğı göstərməliyik. Dövlətimiz də uşaqlara qayğı, diqqət işini özünün prioritet məsələlərindən biri hesab edir. Ona görə ki, ümummilli liderimizin dediyi kimi, uşaqlar bizim gələcəyimizdir. Bu gələcək isə bu gün qurulur. Bu gün biz uşaqlara necə diqqət və qayğı göstərəcəyiksə, gələcəyimiz də o cür qurulacaqdır. Sağlamlığını itirmiş uşaqlar bundan sonra reabilitasiya mərkəzində müalicə alacaqlar və öz sağlamlıqlarını bərpa edib cəmiyyətə inteqrasiya olunacaqlar. Bunlar Azərbaycanda inkişafın olduğunu, dövlətin öz insanlarına qayğısını, eyni zamanda ölkəmizin qloballaşan dünyaya inteqrasiyasını göstərir.

İndi bu mərkəz sağlamlıq imkanları məhdud olan uşaqların tibbi reabilitasiyalarının təmin olunmasında mühüm rol oynayan müəssisəyə çevrilib. Bu mərkəzdə anadangəlmə və ya sonradan müəyyən səbəblərdən sağlamlıqlarını qismən itirən uşaqların muxtar respublikadan kənara getmədən tamamilə dövlət vəsaiti hesabına müayinə və müalicə olunmalarına hər cür şərait yaradılıb.

Mərkəzin baş həkimi Şəhla Əhmədovanın dediyinə görə, burada müalicə olunanlar 18 yaşadək sağlamlıq imkanları məhdud olan uşaqlardır. Belə uşaqların fizioterapiya müalicəsi almaları üçün mərkəzdə müasir tibbi avadanlıqlarla təchiz edilmiş müxtəlif tezlikli cərəyanlarla müalicə, infraqırmızı, ultrabənövşəyi, mikrodalğa ilə müalicə, manual masaj, parafin aplikasiyası otaqları, eyni zamanda su və balneoterapiya (mirvari vannası, burulğanlı vanna, basseyn), müalicəvi bədən tərbiyəsi zalı fəaliyyət göstərir.

Baş həkim bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” təsdiq olunub. Naxçıvan Uşaq Bərpa Mərkəzi də öz işində adıçəkilən dövlət proqramını rəhbər tutaraq fəaliyyətini davam etdirir. Hazırda mərkəzdə 6 nəfəri stasionar, 10 nəfəri isə ambulator müalicə kursu qəbul edən 16 uşaq var. Mərkəzə müraciət edən hər bir uşaq ətraflı şəkildə müayinə olunduqdan sonra həkim-fizioterapevt tərəfindən onun üçün tərtib edilmiş fərdi tibbi reabilitasiya kitabçasında qeydiyyatlar aparılır və gündəlik olaraq təyin edilmiş prosedurların yerinə yetirilməsinə həkim tərəfindən nəzarət edilir. Mərkəzdə müalicə kursu qəbul edən uşaqların əksəriyyəti sinir sistemi xəstəliklərindən əziyyət çəkən uşaqlardır. Mərkəzin kollektivi həmin uşaqların müalicəsində burada yaradılmış şəraitdən geniş şəkildə istifadə etməklə onların ətraf mühitə adaptasiyasına, əzələ tonusunun və gücünün yaxşılaşdırılmasına, hərəkət amplitudalarının artmasına nail olurlar. Qeyd edək ki, sağlamlıq imkanları məhdud uşaqların müalicəsi və reabilitasiyası daim diqqət mərkəzində saxlanılır. Mərkəzin müalicəvi bədən tərbiyəsi zalına uşaqlara göstərilən xidmətin daha da yaxşılaşdırılması və keyfiyyətin artırılması üçün yeni avadanlıqlar – yeriş imitatoru, unikreslo, artromot, aşil tendon gərici verilib. Uşaqlara göstərilən diqqət və qayğının daha bir nümunəsi kimi muxtar respublikada ilk dəfə olaraq mərkəzdə “ Multisensor terapiya” müalicə otağı istifadəyə verilib ki, bu müalicə metodu autizm sindromundan əziyyət çəkən, eyni zamanda diqqət dağınıqlığı olan hiperaktiv uşaqların müalicəsində əvəzolunmazdır.







“Mərkəzdə müalicə kursu qəbul edən uşaqların hər birinə fərdi yanaşmaqla onlarda olan xüsusi istedadların vaxtında aşkara çıxarılmasına da kollektiv tərəfindən xüsusi diqqət göstərilir”, – deyən Şəhla Əhmədova onu da bildirdi ki, adıçəkilən dövlət proqramının icrası ilə əlaqədar olaraq mərkəzin təşkilatçılığı ilə Naxçıvan Dövlət Uşaq Teatrı mərkəzdə müalicə kursu qəbul edən uşaqların iştirakı ilə “Meşə çaqqalsız olmaz” tamaşasını səhnələşdirib, 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ərəfəsində tamaşaya qoyub. Eyni zamanda mərkəzdə müalicə kursu qəbul edən uşaqların Naxçıvan şəhərində keçirilən şeir müsabiqəsində, əl işləri və rəsm əsərlərindən ibarət sərgidə iştirakları təmin edilib, onlardan üç nəfəri 3-cü yerə layiq görülüb. Bundan başqa, onların asudə vaxtlarının səmərəli keçirilməsi, əmək terapiyasına cəlb edilməsi, onlarda kiçik metorikanın inkişaf etdirilməsi, zehni inkişafların yaxşılaşdırılması, sərbəst şəkildə özünə qulluq vərdişlərinin aşılanması məqsədilə mərkəzdə tədris otağı və yeni avadanlıqlarla təchiz edilmiş art-terapiya otağı fəaliyyət göstərir. Uşaqların yay tətilini səmərəli keçirmələri üçün onların Naxçıvan şəhərindəki muzeylərə gəzintiləri təşkil olunur, filmlər nümayiş etdirilir. Qeyd edilənlərlə yanaşı, mərkəzdə müalicə kursu qəbul edən uşaqlardan bir qrupunun Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilib. Bu kateqoriyadan olan uşaqların xarici dövlətlərdə də müalicəsi diqqət mərkəzində saxlanılıb. Belə ki, mərkəzdə müalicə edilən uşaqlardan 4 nəfəri avqust ayının 4-də Türkiyədə müalicə kursu keçib. Mərkəzdə müalicə kursu qəbul edən uşaqlardan ehtiyacı olanların Məhdud Fiziki İmkanlılar üçün Regional İnformasiya Mərkəzində fəaliyyət göstərən defektoloji bölmə, təlim-bərpa otağı, psixoloji dəstək xidmətinin də fəaliyyətindən yararlanmaları diqqət mərkəzində saxlanılır, distant təhsilə ehtiyacı olan uşaqlar haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat verilir.

Şəhla Əhmədova onu da qeyd etdi ki, Uşaq Bərpa Mərkəzinə müraciət edən vətəndaşlardan ehtiyacı olanların Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə göndərilmələri təmin edilir. Eyni zamanda onlar haqqında məlumat hər ayın sonunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə göndərilir. Mərkəzdə müalicə alan uşaqların müxtəlif tədbirlərdə iştirakı da təmin olunur.

Mərkəzlə tanışlıq zamanı müşahidə etdik ki, burada çalışan hər bir həkim və orta tibb işçisi yaradılan şərait müqabilində müraciət edən xəstələri öz doğma övladı kimi qəbul edərək onlara mənəvi dayaq olmağa, eyni zamanda nümunəvi tibbi xidmət göstərməyə çalışır.

*Uşaq Bərpa Mərkəzində müalicə olunan uşaqların valideynləri burada yaradılan şəraitdən, göstərilən tibbi xidmətdən razılıqla danışdılar.*

**Fatma BABAYEVA**

# Atıcılıq Federasiyasının idmançıları Ağbulaq İstirahət Mərkəzində oldublar



***Cari il mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən, idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilir.***

Avqust ayının 12-13-də mərkəzin növbəti qonaqları Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının yetirmələri olub. İkigünlük istirahət proqrama uyğun olaraq təşkil edilib.Yeniyetmə atıcıları Ağbulaq İstirahət Mərkəzində mərkəzin və təşkilatçı qurumların əməkdaşları qarşılayıblar. İlk olaraq idmançılar Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanış olub, “Ağbulaq” bulağına yürüş ediblər. Stolüstü oyunlarda mübarizə aparan yeniyetmə atıcılar arasında mərkəzin stadionunda futbol və voleybol yarışları keçirilib. Şam yeməyindən sonra isə idmançılara vətənpərvərlik mövzusunda sənədli film nümayiş etdirilib.

İkinci günə yeniyetmə idmançılar mərkəzin stadionunda gimnastik hərəkətlərlə başlayıblar. Əyləncəli proqramda isə idmançılar üçün kiçik tamaşalar göstərilib. İdmançılar Batabat yaylağını da gəziblər. Nahar yeməyindən sonra federasiyanın yetirmələrinin Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahətinə yekun vurulub və onlar Naxçıvan şəhərinə qayıdıblar.

Mərkəzdə olan məşqçilər, idmançılar ikigünlük istirahətdən razı qalıblar. Federasiyanın məşqçisi Fərhad Əliyev, idmançı Hümbət Babayev bizimlə söhbətlərində bildirdilər ki, belə istirahətlər idmançılar üçün əlavə stimul yaradır, onları bu sahəyə daha çox bağlayır. Belə istirahətlər idmançıların yarışlarda uğur qazanmalarına müsbət təsirini göstərir.

Federasiyanın yetirməsi Nail Seyidov dedi ki, idmançıların həmişə istirahətə ehtiyacları olur. Yaradılan bu şəraitə, yeniyetmə idmançılar üçün göstərilən qayğıya görə minnətdarlığımızı bildiririk.

Qeyd edək ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

**Ceyhun MƏMMƏDOV**

# Xalq teatrının uğurları artır

***Hər bir xalqın bədii yaradıcılığı, estetik təfəkkürü onun həyatı ilə sıx bağlıdır. İncəsənət, xüsusilə teatr ictimai-tarixi inkişafla şərtlənib. Xalqın gerçək həyatını real boyalarla, canlı obrazlarla əks etdirən teatr sənəti zirvə yürüşündə həmişə öndə olub, öz orijinallığı ilə seçilib.***

Onu da qeyd edək ki, teatr tarixində xalq yaradıcılığı onun milli-mənəvi dəyərlərinin və dünyagörüşünün təzahür formalarından biridir. Azərbaycanın xalq yaradıcılığı da əsrlərboyu formalaşaraq və inkişaf edərək günümüzədək gəlib çatıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 fevral 2009-cu il tarixdə imzaladığı “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Sərəncam milli-mənəvi dəyərlərimizə böyük diqqət və ehtiramın bariz nümunəsidir. Bu tarixi sənəddən irəli gələn vəzifələri yerinə yetirmək məqsədilə Babək Rayon Mədəniyyət Evinin nəzdində yaradılmış dram dərnəyinin uzunmüddətli səmərəli fəaliyyəti, rayon sakinlərinin asudə vaxtlarının səmərəli təşkilinə verdiyi töhfələr və yaradıcılıq uğurları nəzərə alınaraq 2009-cu il 13 iyulda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarı ilə “Xalq teatrı” adına layiq görülüb. Ötən müddət ərzində kollektiv bir neçə əsəri səhnələşdirərək teatrsevərlərə təqdim edib.

Bu barədə rayon Mədəniyyət Evinin müdiri Faiq Heydərov bildirdi ki, xalq qəhrəmanı Babəkə həsr olunmuş Ə.Məmmədxanlının “Xürrəmilərin ağ şahini” əsəri ilə fəaliyyətə başlayan teatr elə ilk tamaşadan özünə geniş auditoriya qazana bilib. Sonra Braziliya yazıçı-dramaturqu Q.Fiqeyredonun “Ezop” əsəri tamaşaya qoyulub. Bundan sonra Xalq şairi B.Vahabzadənin “Yollara iz düşür” əsəri və M.Əlizadənin “Şeyx Rəhmətulla” tamaşası rayon ictimaiyyətinə nümayiş etdirilib.

Faiq Həsənov onu da diqqətimizə çatdırdı ki, tamaşa seçimində ideya olaraq zəhmətsevərlik, düzgünlük, vətənpərvərlik hissləri əsas götürülür. Kollektivin üzvlərindən Sədaqət Əliyeva, Yusif Əliyev, Firdovsi Səfərov, Mahir Vəliyev, İsmayıl Qurbanov, Stella Babayeva və başqaları ali təhsilli mədəniyyət işçiləridir. Tamaşalara Naxçıvan Dövlət Universitetinin tələbələri də cəlb olunublar. Bu həvəskar aktyorların ifasında Cəfər Cabbarlının “Solğun çiçəklər” dramını, Bəxtiyar Vahabzadənin “İkinci səs”, Səttar Axundovun “Məhəbbət nişanəsi”, N.B.Vəzirovun “Yağışdan çıxdıq, yağmura düşdük (Hacı Qənbər)”, Səid Rüstəmovun “Durna” musiqili komediyası, filosof şair Hüseyn Cavidin 130 illik yubileyi münasibətilə “Ana” əsərləri uğurlu səhnə həllini tapıb. 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilən xalq teatrlarının festivalında N.B.Vəzirovun “Yağışdan çıxdıq, yağmura düşdük (Hacı Qənbər)” tamaşası ilə kollektiv birinci yerə layiq görülüb.



Teatrın tamaşaya qoyduğu Hüseynbala Mirələmovun “Xəcalət” əsəri də tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Kollektiv bu əsərlə Naxçıvan şəhərində və Şərur rayonunda da uğurla çıxış edib.

**Hafizə ƏLİYEVA**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Toy adətlərimiz

***Naxçıvanın sosial-iqtisadi inkişafı, əhalinin rifah halının günü-gündən yaxşılaşdırılması ailə quranların sayını xeyli artırıb. Çünki valideynlər övladlarına toy edərkən onun maddi tərəfini də düşünür, ailə quran gənclərin ev-eşiyi barədə fikirləşirlər. Bu gün əhalinin rifah halı, yaxşı gün-güzəranı valideynləri toy məclisi qurularkən bir sıra qayğılardan azad edib. Dövlətimizin böyük qayğısı ilə gənc ailələrin mənzil problemi də öz həllini tapır. Odur ki, son vaxtlar elə olur bir gündə 2 toya gedirik. Nə gözəl. Təki yurdumuzda bax beləcə, şadlıqlar, toy mərasimləri olsun. Ancaq gərək toylarımız da adət-ənənələrə uyğun keçirilsin. Bütün bunları nəzərə alaraq xalqımıza məxsus qədim toy adət-ənənələri barədə oxucularımıza ətraflı məlumat vermək qərarına gəldik.***

Hələ qədimlərdən xalqımızın özünəməxsus adətləri, zəngin ənənələri mövcud olub. Həmin adət-ənənələri qoruyub yaşadan xalqımız bu gün də öz adətləri ilə fərqlənir, tanınır. İki gəncin ən xoşbəxt gününün, səadətli anlarının aynası olan toy mərasimi və adətləri isə xüsusilə böyük əhəmiyyət kəsb edir. Əvvəlcə onu qeyd edək ki, toy adətlərimiz ifadə etdiyi mənaya görə eyni olsa da, məmləkətimizin müxtəlif bölgələrində fərqli tərzdə həyata keçirilir. Biz isə bu yazımızda Naxçıvana məxsus olan adət-ənənələri oxucularımızın diqqətinə çatdıracağıq.

Toy adətlərimiz xalq arasında qızgörmədən sonra mərhələ-mərhələ həyata keçirilir. Belə ki, əvvəlcə oğlan qərara gəlib qızı bəyənirsə, yaxın adamlarına bunu xəbər eləyir. Qızın ailəsi ilə ətraflı maraqlanırlar. Oğlanın ata-anası da razı olduqdan sonra oğlan evi axtarıb, arayıb qız evinə münasib, yaxın bir adam taparaq qızın yaxın adamlarına xəbər göndərir. Bəzən elə olur ki, qız evi razılığa gəlmir. Belə olan təqdirdə qohumlar arasında ən mötəbər, hörmətli adam qız evini razılığa gətirməyə çalışır. Daha sonra adətə görə, əvvəl iki qadın – oğul anası və yaxın qohumlardan biri elçiliyə gedir. Elə ki qadınlar razılığa gəldi, növbə ataların görüşməsinə gəlib çatır. Oğlan atası üç nəfərlə qız evinə gedir. Buna "kiçik elçilik" deyirlər. Elçi gedənlər öz hərəkət və davranışlarıyla, "qız yükü, duz yükü", "qız ağacı, qoz ağacı, hər gələn bir daş atar" kimi məsəllərlə öz məqsədlərini bildirirlər. Qız atası ilk dəfədən razılığa gəlmir. Ancaq qəti söz söylənilməsə də, "böyük elçiliyə" razılıq verilir. Çünki əsas sözü hər zaman olduğu kimi böyüklər, ağsaqqallar söyləməlidirlər.

Böyük elçiliyə qədər oğlan atası ailəyə ən yaxın olan adamları ətrafına toplayaraq məsləhətləşdikdən sonra təyin olunmuş tarixdə yenidən elçi getmək qərarına gəlir. Oğlanın bacısı və ya yaxın qohumları qızın fikrini öyrənib razılıq aldıqdan sonra gələcəkləri günü bildirirlər. Qız evi də bir daha məsləhətləşdikdən sonra əgər münasibdirsə, oğlan evinin elçiliyinə razılıq verir. Yox, əgər qız tərəfi razı deyilsə, rədd cavabı verilir və bu söz dəyişilmir. Qarşılıqlı razılaşmadan sonra üçüncü, həm də sonuncu elçilik hesab edilən "böyük elçilik" olur. Ağsaqqal və ağbirçəklərin böyük önəm daşıdığı bu elçilikdə həm qadınlar, həm də kişilər iştirak edirlər. Oğlan evinin böyükləri mətləbi açaraq qız evinin fikrini bir daha öyrənirlər. Qarşı tərəfin razılığından sonra yeni qohumlar bir-birini təbrik edir və süfrəyə "şirin çay" verilir.

Qızın "hə"sini aldıqdan sonra ən geci bir ay ərzində "bəlgə" deyilən kiçik nişan olur. Oğlan evi qız evinə bir nişan üzüyü, bir yaylıq və şirniyyat aparır. Üzüyü oğlanın bacısı və ya ən yaxın qohumlarından olan bir qız taxır, yaylığı çiyninə salır və bir şirni götürüb qıza dişlədir, yarısını isə oğlana gətirirlər.

Bəlgədən bir müddət sonra böyük nişan mərasimi keçirilir. Buna oğlan tərəfi çoxdan hazırlaşmış olur. Nişanda qız üçün hər nə lazımdırsa, alınır. Təkcə ayaqqabıdan başqa. Çünki onun darlıq rəmzi olduğuna inanılır.

Onu da qeyd edək ki, toya qədər bütün bayramlarda qıza bayramlıq – adətən, qırmızı rəngli paltar, yaylıq, zinət əşyası, müxtəlif şirniyyatlarla dolu xonçalar, buynuzlu qoç aparırlar. Qoçun buynuzları arasına güzgü bağlayırlar. Bu, təmizlik, saflıq deməkdir. Güzgüyə bir şey olsa, bunu uğursuzluq sayırlar. Qoçun buynuzuna alma taxırlar ki, həmin almaya "tabaq alması" deyirlər. Və beləliklə də, növbə toy mərasiminin keçiriləcəyi günü təyin etməyə gəlib çatır. Bunun üçün bir gün oğlan evinin ən yaxın adamları qız evinə qonaq gəlirlər. Bu məclisdə çox vaxt kişilər iştirak edirlər. Danışıqda toy günü müəyyən olunur və xeyir-dua verilərək toya hazırlığa başlanılır.

Toy günündən üç gün qabaq qadınlar, qız-gəlinlər yığışıb oğlan və qız evlərinə "çörəkbişdi"yə gəlirlər. Bu zaman hamı birgə xəmir yoğurur, kündə kəsir, yuxa, lavaş bişirir. İlk bişən çörək oğul və qız analarına verilir. Toydan bir qədər öncə "paltarbiçdi" adlanan və ancaq qadınların iştirak etdiyi kiçik bir məclis də təşkil olunur. Adından da göründüyü kimi, bu məclisdə gəlin olacaq qızın paltarı biçilir.

Beləliklə, sıra "qız toyu"nun keçiriləcəyi məqama gəlib çatır. Səhər mağar qurulur, qız toyu başlanır. Dəstə-dəstə adamlar toy evinə yığışırlar. Yemək verilməzdən əvvəl oğlan evindən gələnlərdən bir nəfər yemək qazanının üstünə nəmər atır. Buna "qazanaçdı" deyirlər. Bundan sonra hamı yeyibiçir, rəqs edib əylənir. Təxminən, 4-5 saat sonra oğlan adamları gedir, məclis bir müddətdən sonra yekunlaşır.

Adətən, oğlan toyundan bir müddət öncə və ya elə toydan bir gün qabaq toy adətlərimizin ən maraqlısı hesab olunan "xınayaxdı" keçirilir. Xınayaxdıda oğlan evi ortasında xına olan tabaq gətirir. Hazırlanan xınadan hamı çeçələ barmağına qoyur, gəlin də nişanlısının adının baş hərfini sağ əlinə, öz adının baş hərfini isə sol əlinə yazır. Xına gecəsində hər iki tərəfin adamlarının söylədiyi haxıştalar xüsusilə maraqlıdır. Bir növ, deyişmə xarakteri daşıyan bu haxıştaları söyləyənlər bir-birlərinə üstün gəlməyə çalışır, məzəli, atmacalı sözləri ilə məclisi daha da əyləncəli edirlər. Məclis qurtardıqdan sonra oğlan evində xına gecəsi səhərə qədər davam edir. Hamı oyaq qalıb sabahkı toya hazırlıq görür, eyni zamanda lətifələr söyləyib əylənirlər.

Xınayaxdının səhərisi oğlan evində toy başlanır. "Vağzalı"nın sədaları altında oğlan evi gəlini aparmaq üçün qız evinə gəlir. Burada bəy iştirak etmir. Gəlin olan otağın qapısı bağlı olur. Bəy atası xələt verməyincə qız evi gəlini otaqdan çıxarmağa qoymur. Bundan sonra bəyin qardaşı qırmızı lenti üç dəfə gəlinin başından və ayağının altından keçirərək belini bağlayır. Evdən çıxmamış qızın atası xeyir-dua verir. Gəlini ata evindən çıxaranda şam yandırır, üzərinə süzgəc qoyub gəlini onun üzərindən keçirirlər ki, ucalığa çatsın. Başına duvaq atıb, gəlini həyətdə qalanan ocağın ətrafında üç dəfə fırladırlar ki, gətdiyi ev işıqlı, ocağı isti olsun. Arxasınca daş atırlar ki, getdiyi yer möhkəm, su atırlar ki, aydınlıq olsun. Gəlini evdən çıxaranda qız evindən olanlar qırmızı lentlə bəzənmiş güzgü və lampa tuturlar, oğlan evi isə həyətdə o ki var, çalıb-oynayır. Sonra hamı oğlan evinə yollanır. Oğlan evinin həyətində gəlinin ayağının altında qurbanlıq qoç kəsirlər. Qoçun qanından gəlinin alnına sürtürlər ki, istiqanlı olsun, oğlan evinə tez qaynayıb-qarışsın. Bu vaxt, gəlin oğlan evinə çatan vədədə bəy damın üstündən gəlinin başına alma, kiçik şirnilər atır. El arasında belə söyləyirlər ki, kim bu almadan və ya şirnilərdən götürsə, xoşbəxt olar, sevdiyinə qovuşar. Elə ki gəlin oğlan evinin qapısına çatdı, sağ ayağının altına boşqab qoyurlar və sındırıb keçsin ər evinə. Bunun da mənası bəd nəzərlərin sındırılması deməkdir. Gəlini qapıda əyləşdirib qucağına oğlan uşağı oturdurlar ki, ilk övladı oğlan olsun. Bundan başqa, gəlin gətirilən otaqda yerə yeddi təndir çörəyi düzürlər. Gəlin bunları birbir götürür. Bunun da mənası odur ki, gəlin bu evə xeyir-bərəkət gətirəcək, onun qədrini bilən olacaq. Sonra gəlinin qayınanası gəlib xeyir-dua verir, qayınatası "xoşgəldin" edir, evin ağbirçəyi isə gəlinə tərif deyir.

Bundan sonra axşamüstü həyətdə toy başlanır. Qeyd etməliyik ki, oğlan və ya qız toyunda məclisi əlində çubuq tutan bir nəfər kişi idarə edir. Masabəyidən fərqli olaraq, o, çubuğuyla nadinclik edənləri, oynamayanları cəzalandırır, bir növ, toyda "asayişi" qoruyub saxlayır. Oğlan toyuna qız evindən də qonaqlar gəlir, toyda 1-2 saat əyləşib gedirlər.

Oğlan toyunda müxtəlif yallılar ifa olunur. Bunların arasında ən məşhuru "Bəy yallısı"dır. Yallı ona görə belə adlanır ki, bu rəqsi bəy hamıyla birgə ifa edir. İki dəstə oğlan qarşı-qarşıya durub bir-birləri ilə yapışaraq rəqs edir, sonra hər iki tərəf bir-birinin qollarının altından keçir. Rəqs bir saata qədər davam edir və bu müddətdə heç kəs dayanmamalıdır. Daha sonra hər iki dəstə bir-birinin çiynindən tullanır. Yıxılan olsa, bu, rəqib tərəfin qalibiyyəti deməkdir. Hamı birgə əyləndikdən sonra toy məclisi yekunlaşır.

Toy gününün səhəri qız evi gəlinin cehizlərini gətirir. Gəlinin başına qırmızı duvaq örtürlər. Bir ağbirçək qadın barlı bir ağacın budağını gəlinin başı üstündə tərpədə-tərpədə ibrətamiz sözləri olan mahnı oxuyur. Gəlinin başından duvağını birinci götürmək üçün hamı mahnının oxunub qurtarmasını səbirsizliklə gözləyir. Mahnı qurtaran kimi duvağı götürən balaca oğlan uşağı qaçıb bəydən nəmər alır, duvağı ona verir. Bu adətə "duvaqqapma" deyirlər. Sonra gəlinin cehizləri hamıya nümayiş etdirilir.

Toydan üç gün sonra gəlin bəylə birgə öz atası evinə "ələpdü"yə gedir. Bu adət, bir növ, minnətdarlıq, hörmət əlaməti daşıyır. Gəlin öz valideynlərinin əlini öpməklə onlardan bir daha xeyir-dua alır.

Toy bitəndən bir neçə ay sonra isə, demək olar ki, sonuncu bir toy adəti "ayaqaçdı" həyata keçirilir. Əvvəlcə gəlinin ailəsi bəyi və onun ailə üzvlərini qonaq çağırır, süfrə bəzədilir, qonaqlıq verilir. Ev yiyəsi hər bir ailə üzvünə hədiyyə verir. Bütün bunlar eynilə bəyin ailəsi tərəfindən də həyata keçirilir.

*Əziz oxucular! Göründüyü kimi, toy adətlərimiz bizim üçün əsl bir xəzinədir. Məhz buna görə də onlardan nə qədər söhbət açsaq da, söylədiklərimiz söz ümmanında kiçik bir damlanı xatırladır. Amma kiçik bir damla da kifayətdir ki, tariximizi xatırlayaq, adət-ənənələrimizə bağlılığı qəlbimizdə hiss edək, ruhumuzda duyaq. Bu gün təəssüf hissi ilə onu da bildirməliyik ki, bəzi toy adətlərimiz ("çörəkbişdi", "paltarbiçdi", "damdan alma atma") dəyişikliyə məruz qalıb, müəyyən mənada sıradan çıxıb. Bu isə heç də ürəkaçan deyil. Çünki bizim üçün ucalıq, müqəddəslik rəmzinə çevrilən toy adətlərimiz ulularımızın hikmətinin açıq-aydın təzahürü olmaqla bərabər, kimliyimizin, mənliyimizin yaşadılmasında dərin bir iz qoyub. Məhz buna görə də adətlərimizə qarşı daha diqqətli olmağı bacarmalı, onları göz bəbəyimiztək qorumalıyıq.*

✍ **Fatma BABAYEVA**

***Bu gün ölkəmizdə ən çox sevilən idman növlərindən biri futboldur. Naxçıvan Muxtar Respublikasında da ən kütləvi idman növü olan futbolun zəngin tarixi və ənənələri var. İstər ötən əsrdə, istərsə də indi Naxçıvan Azərbaycan futboluna peşəkar futbolçular və məşqçilər bəxş edib.***

## "Darıdağ" Futbol Klubu uşaq futbolunun inkişafına öz töhfəsini verir



Təbii ki, istedadlı uşaq və gənclərin üzə çıxarılması, onların bu sahədə uğur qazanmaları üçün diqqət hər zaman vacibdir və uşaq futbolunun inkişafı birbaşa infrastrukturdan, şəraitdən, madditexniki bazadan asılıdır. Qürurvericidir ki, bütün bunlar muxtar respublikamızda təmin olunub. Müasir stadionlar, məşq meydançaları, yüksəkkeyfiyyətli inventarlar, avadanlıqlar uşaq və gənclərin yolunda konkret perspektiv körpü rolunu oynayır.

Naxçıvan Muxtar Respublikasında uşaq futbolunun inkişafına öz töhfəsini verən klublardan biri də "Darıdağ" Futbol Klubudur. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən klub öz istedadlı yetirmələrinin oyunları ilə öyünə bilər. Komanda mütəmadi olaraq uşaq futboluna dəstək verir, muxtar respublikada bu növə uşaqların marağını artırmaq üçün yoldaşlıq görüşləri, turnirlər, yarışlar təşkil edir. Son olaraq Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən yarış bunun bariz nümunəsidir.

Komandanın baş məşqçisi Şəhriyar Məmmədovla söhbətimizdə ilk olaraq uşaqların seçim məsələlərinə toxunduq. O bildirdi ki, klubda, adətən, iyun və yanvar aylarında keçirdiyimiz seçimlər daha genişmiqyaslı olur. Bu barədə müəyyən vasitələrlə əvvəlcədən məlumat veririk. Muxtar respublikanın hər bölgəsindən istedadlı uşaqları toplayırıq. Ən yaxşılarını seçdikdən sonda namizədlərlə müqavilə bağlanılır. Lakin bundan öncə onların tibbi baxışdan keçmələrini tələb edirik. Əgər kiminsə sağlamlığında problem aşkarlanarsa, onun valideyninə məlumat verilir ki, müəyyən müddət idmanla məşğul olmasın.

"Darıdağ" Futbol Klubu bir ildən çoxdur, fəaliyyət göstərir. Hazırda klubun 4 yaş qrupu üzrə – 11, 12, 13 və 14 yaşlılardan ibarət komandaları var. Həftənin 6 günü məşq prosesi keçən qrupların hər birində 15 uşaq futbolun sirlərini öyrənir.

Şəhriyar Məmmədov onu da bildirdi ki, istedadına güvənən istənilən uşaq kluba müraciət edə bilər: "Klubumuzun qapısı hər zaman istedadlı uşaqların üzünə açıqdır. Məqsədimiz muxtar respublikada futbolu inkişaf etdirmək və kütləviləşdirmək, uşaqlar, yeniyetmələr və gənclər arasında futbolun populyarlığını daha da artırmaqdır. Başqa sözlə desək, əsas məsələ peşəkar futbol deyil, sosiallıq səviyyəsini qaldırmaqdır. Uşaqları körpə yaşdan idmana cəlb etmək lazımdır ki, cəmiyyətə inteqrasiya etsin. Çünki bu, gələcəkdə onların kamil insan kimi formalaşmasında böyük rol oynayır. Sevindirici hal odur ki, uşaq futbolunda əldə etdiyimiz uğurlar gündən-günə artmaqdadır. Uşaq futbolunun inkişafı, ümumilikdə, futbolun inkişafına böyük təsir göstərir. Daxili İşlər Nazirliyinin dəstəyi sayəsində bir il ərzində bizə müraciət edənlərin sayı 100-dən çox olub. Heyətimizdə olan futbolçuları AFFA-nın qeydiyyat bazasında qeydiyyatdan keçirmişik. Gələcəkdə bu futbolçuların Naxçıvan futbolu üçün uğur qazanacağına və milli komandada çıxış edəcəyinə əminik".

Muxtar respublikamızda gənc nəslin fizikimənəvi inkişafı, zərərli vərdişlərdən uzaqlaşması və idmana, futbola yönəlməsi istiqamətində görülən işlər qurur doğurur və işlərin davamlı xarakter alması göz qabağındadır. İndi bu uşaqların, sadəcə, mənəvi dayağa ehtiyacları var. Əgər məşqçilər, valideynlər tərəfindən bu dayaq daimi olarsa, o zaman yaradılan şəraitdən istifadə edən uşaqlar futbol ənənəsi olan Naxçıvanı daha böyük yerlərdə təmsil edəcəklər.

✍ **Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

**Məsul katib:**
**Muxtar Məmmədov**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Rauf Əliyev**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1050. Sifariş № 618**